| Xəstəlik sinifi (XBT-10) | L- Dəri və dərialtı toxumanın xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı(İSİM) | Məmmədova L. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| **L23** | Allergik təmas dermatiti |

## Müalicə

Allergik təmas dermatitinin əsas müalicəsi allergendən uzaq durmaq və ya onu kənarlaşdırmaqdan ibarət olur (şəxsi qoruyucu vasitələr, iş yerində istifadə edilən əşyaların və ya üsulların dəyişdirilməsi, məşğuliyyətin dəyişdirilməsi).

Yerli qlükokortikoid kremlər.

Həkim təyinatı ilə xroniki hallarda tətbiq edilən immunsupressiv dərman maddələri.

Topikal (yerli) müalicə

Əldə allergik dermatitin müalicəsi:

Dermatitin ağırlıq dərəcəsindən asılı olaraq, müxtəlif təsirə malik qlükokortikoid kremlər, dəri sağalana qədər 2-6 həftə ərzində gündə bir və ya iki dəfə tətbiq edilir.

Kəskin vezikulyar dermatitdə səth adətən nəm kompreslə örtülməlidir (hər dəfə 10-20 dəqiqə olmaqla gün ərzində iki və ya üç dəfə).

Sistem müalicə

Ağır və yayılmış allergik dermatit hallarında qısa sistemşəkilli qlükokortikoid müalicəsi təyin edilə bilər, məsələn,1 - 2 həftə ərzində gündə bir dəfə 20 - 40 mq ***Prednizolon (Prednisolone).***

Allergik dermatitdə antibiotiklərə nadir hallarda ehtiyac duyulur və onlar yerli müalicəni əvəz etmir. Əgər səpgilərdə infeksion proses aydın şəkildə müşahidə edilərsə, antibiotiklər təyin edilə bilər ***(Sefaleksin (Cefalexin)*** 500 mq, 7 - 10 gün ərzində, gündə üç dəfə olmaqla).

## Ədəbiyyat

**Allergik kontakt dermatit**

**Məqalənin son yenilənmə tarixi: 16.11.2020**

**https://ebmg.az/article/content/325**